# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

28 noyabr 2019-cu il
Cümə axşamı

№ 46 (3461)

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## PREZİDENT İLHAM ƏLİYEV BOLQARISTANIN DAXİLİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Düşünürəm ki, ölkələrimizi bir-birinə bağlayan məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Mən şadam ki, münasibətlər çox uğurla inkişaf edir. Əlbəttə, yüksək səviyyədə qarşılıqlı səfərlər bizim əlaqələrimizi möhkəmləndirir. Mən bir neçə dəfə, o cümlədən rəsmi səfərlə sizin ölkənizdə olmuşam. Bolqarıstan prezidentləri dəfələrlə Azərbaycana səfər ediblər. Həmçinin Baş Nazir cənab Borisov da bizim qonağımız olub. Beləliklə, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur.

Əlbəttə ki, biz energetika sahəsində də əməkdaşlıq edirik. Bolqarıstan Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının işində həmişə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Əminəm ki, ölkələrimizi birləşdirən bu layihə yaxın vaxtda uğurla başa çatdırılacaq. Beləliklə, uzun illər ərzində biz energetika gündəmi ilə bağlı olacağıq. Lakin, həmçinin əmtəə dövriyyəsinin də artırılmasını nəzərdə tuturuq. Düşünürəm ki, Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılmasından sonra ölkələrimizin biznes qurumları bir-biri ilə daha çox əlaqə saxlayacaq və daha sıx əməkdaşlıq edəcəklər.

Gələcək əməkdaşlığın daha bir istiqaməti nəqliyyat sahəsidir. Azərbaycan artıq qonşu ölkələrə və digər dövlətlərə yüklərin Şərq-Qərb marşrutu ilə daşınması üçün tranzit xidmətləri göstərir. Beləliklə, əminəm ki, bu mühüm dəhlizin genişləndirilməsi ilə ölkələrimizdən yük göndərənlər əməkdaşlıq üçün əlavə imkanlar əldə edəcəklər.

Əlbəttə, siz səfər çərçivəsində həm Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq mövzusuna, həm də ictimai asayişin, təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərə toxunacaqsınız. Təcrübə mübadiləsi də böyük əhəmiyyət kəsb edir. Daxili işlər orqanları ictimai asayişin qorunması, vətəndaşların dinc yaşayışının təmin edilməsi üzrə mühüm vəzifəni yerinə yetirirlər. Lakin qeyd etməliyəm ki, artıq uzun illər ərzində həm Bolqarıstanda, həm də Azərbaycanda ictimai-siyasi sabitliyin olduğunu nəzərə alaraq, polis orqanlarının işi sizin bəzi həmkarlarınızın işindən daha azdır. Biz bir sıra inkişaf etmiş ölkələrin polis orqanlarını demək olar ki, hər gün nümayişçilərlə necə davrandığını, onları döydüklərini, öldürdüklərini, xəsarət yetirdiklərini, qaz, su, dəyənəklə, itlərlə qovduqlarını və çox böyük qəddarlıq nümayiş etdirdiklərini televiziyada görürük. Həm də biz bu cür halları dünyanın müxtəlif ölkələrində, müxtəlif regionlarında, o cümlədən ən inkişaf etmiş ölkələrdə görürük. Lakin Azərbaycanda bizim bu məsələ həmişə maraqlandırır, nə üçün insanların hüquqlarının təmininə cavabdeh olan beynəlxalq təşkilatlar bəzən dinc nümayişçilərin qəddarcasına, qeyri-insani dağıdılmasını görərkən susurlar? Azərbaycanda hansısa kiçik epizod baş verdikdə isə, məsələn, təxminən bir ay əvvəl qanunsuz aksiyanın qarşısının heç bir güc tətbiq etmədən alınmasından sonra beynəlxalq təşkilatlar, bəzi ölkələrin Azərbaycandakı səfirləri bəyanatlar verməyə başlayıblar və az qala hökumətimizi ittiham etməyə cəhd edirlər. Bu hal Avropada həm də qurbanlarla, qətllərlə, xəsarətlərlə, nümayişlərin dağıdılması ilə baş verdikdə isə hüquq müdafiə təşkilatları və beynəlxalq strukturlar susurlar. Bu, ikili standartların təzahürüdür və bu ikili standartlar onları nümayiş etdirən həmin təşkilatları nüfuzdan salır. Kimisə hər hansı məsələdə ittiham etmək üçün, ilk növbədə, buna mənəvi haqqın olmalıdır. Bizi isə bəzən insan hüquqlarını kobud şəkildə pozanlar və dinc nümayişçiləri qəddarcasına dağıdanlar ittiham etməyə cəhd göstərirlər.

Lakin bir daha demək istəyirəm ki, istər Bolqarıstanda, istərsə də Azərbaycanda ictimai-siyasi sabitlik və asayiş xalqın iradəsi ilə təmin olunur. Sizin ölkəniz mənim dostum cənab Borisovun rəhbərliyi ilə inkişaf və sabitlik yolu ilə irəliləyir. Biz bunu yüksək qiymətləndirir və sizi bütün bu uğurlar münasibətilə təbrik edirik. Beləliklə, mən bizim daxili işlər orqanlarının işinin o qədər də çox olmadığını dedikdə məhz bunu nəzərdə tuturam. Arzu edirəm ki, həmişə sizin işiniz az olsun.

Bir daha xoş gəlmisiniz.

*****

Daxili İşlər naziri Mladen Marinov dedi:

- Hörmətli cənab Prezident, çox sağ olun. Sizin məni qəbul etməyiniz mənim üçün böyük şərəfdir. İcazə verin, Sizi cənab Baş Nazir Boyko Borisovun adından salamlayım.

Azərbaycan bizim həm energetika sahəsində, həm də gələcək nəqliyyat dəhlizlərinin inkişafında, iqtisadi əlaqələr üzrə və təhlükəsizlik sahəsində strateji tərəfdaşımızdır. Cənub Qaz Dəhlizinin tikintisinin vaxtında başa çatdırılmasına nail olmaq və beləliklə, bir milyard kubmetr qaz tədarükünü təmin etmək bizim üçün çox vacibdir.

*****

Prezident İlham Əliyev Bolqarıstanın Baş Naziri Boyko Borisovun salamlarına görə minnətdarlığını bildirdi, onun salamlarını Bolqarıstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.

## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Rusiya Federasiyasına rəsmi səfərə gəlib.



Birinci vitse-prezident Mehriban Əliyeva noyabrın 21-də Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət edib.

Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-də Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə görüşüb.

Noyabrın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Lujniki" Olimpiya Kompleksində Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanın Gimnastika Mərkəzi ilə tanış olub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın noyabrın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.

Rusiya Prezidenti avqustun 13-də imzaladığı fərmana əsasən, "Dostluq" ordeni ilə təltif etdiyi Azərbaycanın Birinci vitse-prezidentinə dövlət mükafatını təqdim edib.

Noyabrın 22-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko birgə şam ediblər.

Noyabrın 23-də Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunun əsaslı bərpa və təmirdən sonra açılış mərasimi olub.

Mərasimdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko iştirak ediblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko noyabrın 23-də Moskvada işini Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Kosmos" binasında davam etdirən X Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak ediblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 24-də Rusiyanın TASS agentliyinə, "Rossiya 24" telekanalına və "Rossiyskaya qazeta"ya müsahibə verib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyaya rəsmi səfəri çərçivəsində Dövlət Tretyakov Qalereyasında olub.

Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 8-ci Moskva Beynəlxalq Müasir İncəsənət Bienallesi ilə tanış olublar.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub.

Dövlətimizin başçısı tədbirdə geniş nitq söyləyib.

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıtda "Nizami" kinoteatrının yeni binasının açılışında iştirak edib.

Həmin gün Sumqayıtda Muğam Mərkəzi istifadəyə verilib. Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Dövlətimizin başçısı Muğam Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısı elektromobillə Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsini gəzib.

***Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasim keçirilib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.***

**"Polis Azərbaycan dövlətinin, xalqımızın keşiyində duran mübariz bir orqandır."**

***Ulu öndər Heydər Əliyevin sözləri ilə başlayan yazı Azərbaycan polisi bizim təhlükəsizliyimizin, rahatlığımızın, rifahımızın keşiyindədir...Azərbaycan polisi bizim həyatımızı qoruyur. Biz də öz polisimizin şərəfi, ləyaqəti, məsuliyyəti ilə doğrultduğu adını qoruyaq..." sözləri və oxucularımız üçün maraqlı olduğunu nəzərə alaraq, Milli Məclisin deputatı, yazıçı-publisist Hüseynbala Mirələmovun "Azərbaycan" qəzetinin 7 noyabr 2019-cu il tarixli sayında dərc edilmiş "Mənim polisim" sərlövhəli geniş məqaləsini olduğu kimi diqqətinizə çatdırırıq.***

*Bax səh.2-3*

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinov ölkəmizə rəsmi səfərə gəlib.**

Noyabrın 21-də cənab Mladen Marinov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzülüb.

Qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

Sonra Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan nazir dəvətini qəbul edərək ölkəmizə rəsmi səfər etdiyinə görə bolqarıstanlı həmkarına təşəkkür edib, onun Sofiya şəhəri Daxili İşlər Direktoratlığının rəisi vəzifəsində çalışarkən Avropa paytaxt polis rəislərinin 2015-ci il avqust ayında Bakıda keçirilmiş 37-ci konfransında iştirakını məmnunluqla xatırladıb.

*Ardı 2-ci səhifədə.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*Əvvəli 1-ci səhifədə.*

Azərbaycan Prezidenti zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin sürətli inkişaf və tərəqqi yolu keçdiyini, beynəlxalq nüfuzunun yüksəldiyini, respublikamızda əsrlər boyu müxtəlif dinlərə, millətlərə mənsub insanların qarşılıqlı ehtiram və həmrəylik şəraitində yaşadıqlarını diqqətə çatdıran nazir son illər əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluğunu ifadə edib, belə qarşılıqlı səfərlər və təmasların əməkdaşlığın daha da genişləndirilməsinə təkan verəcəyini bildirib.

Daha sonra cənab V.Eyvazov müstəqilliyin ilk illərində ölkədə hökm sürmüş hərc-mərclik, anarxiya, cəzasızlıq mühiti, eyni zamanda, Ermənistanın hərbi müdaxiləsi nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi, nəticədə 1 milyondan artıq soydaşımızın doğma yurd yerlərindən didərgin düşməsi, yalnız xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyevin müdrik siyasəti, onun rəhbərliyi ilə hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının birgə gərgin və səmərəli fəaliyyəti nəticəsində ölkədə asayişin, əmin-amanlığın bərpa edilməsi, kriminogen durumun nəzarət altına alınması, bugünkü ictimai-siyasi sabitliyin dönməzliyinin təmin olunması üçün görülən işlər barədə qısa məlumat verib.



Daxili işlər orqanlarında həyata keçirilən genişmiqyaslı hüquqi-demokratik islahatlar barədə məlumat verən nazir əməliyyat-xidməti fəaliyyətin beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının önə çəkildiyi yeni normativ hüquqi bazanın yaradılması istiqamətində görülən işlər barədə danışıb, cinayətlərin qarşısının alınmasında ən müasir informasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunduğunu diqqətə çatdırıb.



Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına Bolqarıstanın verdiyi dəstəyin respublikamızda yüksək qiymətləndirildiyini nəzərə çatdıran nazir V.Eyvazov siyasi, iqtisadi-ticari əlaqələrin dinamik inkişafının təhlükəsizliyin etibarlı təmini ilə birbaşa əlaqəsi olduğunu qeyd edib, hazırkı səfərin ölkələrimizin Daxil İşlər nazirlikləri arasındakı əməkdaşlığın möhkəmləndirilməsində önəmli mərhələ olacağına əminliyini ifadə edib. Bu gün dünyadakı mövcud təhdid və çağırışların terrorizmlə, ekstremizmlə, həmçinin transmilli mütəşəkkil cinayətkarlığın bütün növləri ilə mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi, belə qlobal xarakterli təhlükələrə qarşı kəsərli tədbirlərin görülməsində operativ informasiya və qabaqcıl təcrübə mübadiləsinin, əməkdaşlığın müqavilə-hüquqi bazasının daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Daha sonra general-polkovnik V.Eyvazov bu yöndə ekspertlərin iştirakı ilə 27 aprel 2012-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Bolqarıstan Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə əlavə Protokolun hazırlanaraq aidiyyatı dövlət orqanları ilə razılaşdırıldığını, ölkəmizin Avropa İttifaqının üzvü olan bir dövlətlə ilk dəfə imzalanması nəzərdə tutulan həmin sənəddə hər iki tərəfin maraq və mənafelərinin, beynəlxalq öhdəliklərinin nəzərə alındığını qeyd edib, onun cinayətkarlığa qarşı mübarizə sahəsində birgə işbirliyinin səmərəliyinin daha da artırılmasına xidmət edəcəyinə əminliyini bildirib.

Rəsmi dəvətə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Mladen Marinov Bolqarıstanın ilk Daxili İşlər naziri kimi respublikamıza rəsmi səfər etməsindən fəxarət duyduğunu, dövlətlərimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə genişlənərək daha da dərinləşdiyini, yaxın dost saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb, rəhbərlik etdiyi qurumun çoxşaxəli funksional vəzifələri və fəaliyyət istiqamətləri, ölkəsindəki mövcud kriminogen durum, bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Görüşün sonunda Daxili İşlər nazirləri-general-polkovnik Vilayət Eyvazov və Mladen Marinov "Azərbaycan Respublikasının Hökuməti və Bolqarıstan Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə əlavə Protokolu imzalayıblar.

Qəbulda ölkəmizin Bolqarıstandakı fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova və Bolqarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankov iştirak ediblər.

***21 noyabr 2019-cu il.***

# MƏNİM POLİSİM

...Lənkərandan qayıdırdıq, maşını oğlum idarə edirdi, bacıoğlu da bizimlə idi. Yolun tən yarısından bir xeyli keçmişdi ki, oğlum benzinin artıq tamam tükənməsinə işarə edən işığa baxıb heyfsiləndi:

- Gərək şəhərdən çıxanda benzin vuraydıq. Qorxuram yanacaq qurtara, yarı yolda qalaq.

Mən onu benzindən yana narahat olub geniş, hamar və sürətli yolda diqqəti yayınmasın deyə xatircəm etmək istədim:

- Narahat olma, oğul, səhv etmirəmsə, irəlidə yanacaqdoldurma məntəqəsi olmalıdır...

Amma, deyəsən, özüm də unutmuşdum ki, yol yeni çəkildiyindən ətrafında hələ lazımi sayda yanacaqdoldurma məntəqəsi yoxdur və yolda qala bilərik. Necə deyərlər, ağlımıza gələn başımıza gəldi...

Oğlum maşının artıq təntiyərək sürətdən düşdüyünü görüb onu yolun kənarında saxladı, qəza işıqlarını yandırdı, mühərrik sanki bunu gözləyirmiş kimi astadan bir-iki dəfə "öskürüb" səsini xırp kəsdi...

Artıq qürub günəşinin al-qırmızı şəfəqləri üfüqlərin arxasında qeyb olurdu, qaş qaralırdı. Biz səbirlə yanımızdan sürətlə şütüyən maşınları izləyirdik. Mən də gözləyə-gözləyə ötən illərin bəzi məqamlarını xatırlayırdım.

Uzun illərdir ki, yollardayam, sürücü həmrəyliyinin necə yüksək bir dəyər olduğuna, belə çətin məqamlarda yazılmamış qanun kimi dərhal işə düşdüyünə bələd idim. Sürücülərin təmənnasız yardıma tələsib bir-birini yolda qoymadıqlarını çox görmüşdüm. Ona görə ötən illərin təcrübəsindən gələn bir əminliklə gözləyirdim ki, elə indicə sürücülərdən biri maşınını yanımızda əyləyəcək, dərdimizi öyrənib, azacıq benzin verəcək. Sonra biləcəkdik ki, yanacaqdoldurma məntəqəsi də bir elə aralıda deyilmiş, cəmi bir-iki litr benzin bizə bəs edərmiş. Gözlədik, təqribən bir saata qədər vaxt keçdi, amma çifayda, yanımızda bir nəfər də saxlamadı. Məndən də çox bu duruma cavanlar sıxılırdılar. Birdən uzaqdan bir Dövlət Yol Polisi avtomobilinin sayrışan işıqlarını yandırıb bizə tərəf irəlilədiyini gördük. Bərabərimizə çatıb əylədi, iki gənc yol polisi əməkdaşı idi. Biri aşağı düşüb nə baş verdiyini, nə kömək lazım olduğunu soruşdu. Durumu izah edincə, dedi ki, qarşıda yanacaqdoldurma məntəqəsi var. Cavanlardan birinin onlarla gedib benzin gətirməsini məsləhət gördü və əlavə etdi ki, onların maşınında benzin üçün balaca qab da var. Bacıoğlu onların avtomobilinə əyləşdi, sürüb getdilər, aradan heç on dəqiqə keçmədi ki, yenidən geri qayıtdılar. Polis əməkdaşları benzini maşınımıza tökməyə yardım göstərdilər, oğlum mühərriki işə saldı, xudahafizləşib ayrılmaq istəyəndə onlardan ad və soyadlarını soruşdum.

Biri gülümsünərək dilləndi:

- Yəqin, bunu təşəkkür etmək üçün soruşursunuz. Amma üzrlü sayın, nizamnaməmizə zidd olsa da, bu dəfə özümüzü təqdim etməyəcəyik. Çünki biz böyük bir iş görmədik. Sadəcə, vəzifə borcumuzu yerinə yetirdik. Bunun üçün də heç bir təşəkkürə gərək yoxdur. Yolunuza sağ-salamat davam edin, bu bizə yetər. Sizə yaxşı yol!

İsrarımın heç bir nəticə verməyəcəyini görüb mən də ölkəmin bu gənc polis əməkdaşlarına öz şərəfli xidmətlərində uğurlar arzulayıb, maşına əyləşdim. Yolumuza davam edib, qarşıdakı benzindoldurma məntəqəsində maşının çəninə lazımi qədər yanacaq vurduq. Bacıoğlu dedi ki, o, bayaq polis əməkdaşlarını yoldan çox saxlamamaq üçün geri taksi ilə qayıtmaq istəyib, amma onlar buna razı olmayıblar, onu geriyə də öz maşınlarında gətiriblər.

Gənclər yol boyu polislərimizin bu nümunəvi hərəkətindən heyranlıqla danışırdılar. Söz-sözü gətirir, polislə bağlı şahid olduqları, rast gəldikləri, dost-tanışdan eşitdikləri başqa belə xoş nümunələr də yada düşürdü.

Onu da qeyd edim ki, polislər heç məni tanımamışdılar da...

Həmin polislərin bizə etdiyi kömək, özlərinin də dediyi kimi, mahiyyətcə bəlkə elə böyük bir yaxşılıq sayılmazdı. Amma bəzən hansısa anlarımızda başqasının adicə sözü, kiçicik nəcib hərəkəti, xeyirxahlığı bizdən ötrü o qədər böyük mənəvi dəyər yaradır ki, onu heç bir ölçü meyarı ilə qiymətləndirə bilmirsən. Başımıza gələn o yol əhvalatı da belə hallardan idi. O iki polis əməkdaşının hərəkətindən riqqətə gəlmişdim, əhvalım çox durulmuşdu, elə bilirdim, ömrümə illər calanıb.

Bəlkə də bunu adi yol maşını sürücülərindən biri eləsəydi, heç bu qədər təsirlənməyəcəkdim. Çünki yaxşılıq, xeyirxahlıq, başqalarına təmənnasız kömək xalq olaraq qanımızdadır, adət-ənənələrimizdən gəlir. Nə vaxtsa mən də yolda qalanı darda qoymamışam, nə vaxtsa məni də yolda qoymayanlar olub. Əcdadlardan üzü bəri belə hərəkətlər bizim üçün o qədər gündəlik həyat lövhələrinə çevrilib ki, artıq adiləşib və belə olması deyil, belə olmaması adama qəribə gəlir.

Bizə kömək edən o polislərinsə maşınlarında, uniformalarında dövlət gerbimizin təsviri vardı...

Onlar Azərbaycan dövlətinin rəmzləri idi...

Onların timsalında dövlətimiz özü yarı yolda qalmış vətəndaşlarının köməyinə yetişmişdi... Üzləşdiyimiz problemi cəmi bir neçə dəqiqənin içində yoluna qoymuşdu. Necə ki, bizim şəxsən şahid olmadığımız, görmədiyimiz, bilmədiyimiz on minlərlə belə vəziyyətlərdə, bundan da qat-qat ağır durumlarda Azərbaycan dövləti dərhal öz vətəndaşının yardımına tələsir, çarəsiz anında ona əl uzadır, dadına çatır...

Ən çox buna duyğulanmışdım...

Bir tərəfdən də maşınımızın yanıb-sönən qəza işıqlarını, yol kənarında kömək ümidi ilə nəzərlərini onlara dikmiş bir ahıl, iki cavan yol adamını sanki heç görmürmüş kimi yanımızdan şütüyüb keçən maşınlar, onların sürücüləri, sərnişinləri gəlirdi ağlıma...

Və öz-özümə sual verirdim ki, biz niyə belə olmuşuq, görəsən?! Axı bu cür görməmişdik, bu cür yaşamamışdıq!

Doxsanıncı illər idi. Öz şəxsi "Jiquli"mdə incəsənət muzeyinin qabağı ilə üzüyuxarı qalxırdım. Maşın birdən-birə titrəyərək söndü. Mən "Jiquli"dən düşüb "kapot"u açdım. Ancaq heç nədən başım çıxmırdı. Yalandan bir az qurdalanandan sonra çəkilib bir qıraqda dayandım. Bir anın içində maşının qabağında və arxasında bir neçə avtomaşın dayandı.

Sürücülər mənə yaxınlaşıb nə baş verdiyini soruşdular. Mən cavab əvəzinə çiyinlərimi çəkdim. Onlar məsələni anlayıb mühərrikxanaya baxdılar. Xülasə, maşını düzəldib, məni yola saldılar. Bax, belə də olurdu!

Həmin gün Bakıya çatana qədər daxili dünyamda o yol əhvalatından yaddaşıma köçmüş iki mənzərə üz-üzə dayanmışdı. Bir tərəfdən bizə məhəl qoymadan yanımızdan ötüb keçən insanlar, zəifləyən milli dəyərlər, adət-ənənələr, bu biri tərəfdən də Azərbaycan polisinin nümunəvi davranışı...

*Ardı 3-cü səhifədə.*

# ƏDALƏTİN TƏMƏLİ- İNSAN HÜQUQLARI

**BMT Baş Məclisi 1948-ci il dekabrın 10-da "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" qəbul etdi. Məqsəd insan hüquqlarını və bütün ölkələrin əməl etməli olduqları normaları müəyyən etmək idi. Sənədi qısa müddətdə hətta ən qəddar diktaturalar belə imzaladılar.**

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" müxtəlif sosial-iqtisadi quruluşlu dövlətlərin insan hüquqlarının müdafiəsi sahəsində mühüm beynəlxalq sənəddir. O, dünya dövlətlərinin müvafiq qanunvericiliyinə də öz müsbət təsirini göstərir.

Təxminən 20 il davam edən müzakirələrdən sonra Mülki və Siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında Beynəlxalq Pakt qəbul edildi.

Dünya ictimaiyyəti tərəfindən tanınan yeni növ insan hüquqlarının siyahısı ilbəil yenilənir. Bu gün dünya artıq insanın ekoloji hüququnu tanımaqdadır, gələcək nəsillərin ləyaqətlə və layiqincə yaşamaq hüququ müzakirə edilir. Müasir dünyada insan hüquqları daha geniş bir anlayışdır.

İnsan hüquqlarının qorunmasının əhəmiyyəti o qədər böyükdür ki, BMT Baş Məclisi 1950-ci ildə bütün dövlətlərə və maraqlı təşkilatlara dekabrın 10-nu İnsan Hüquqları Günü kimi qeyd etməyi tövsiyə etmişdir.

Yeni əsrin ilk illərindən Azərbaycan dövləti tərəfindən insan hüquqlarının qorunması, hüquq və azadlıqlarının təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman o, öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılması idi.

Ölkəmizdə dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək və onu qorumaq vəzifələrini ehtiva edir. Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması və digər məsələlər də ölkəmizdə insan hüquqları kimi bəşəri dəyərə münasibətin göstəricisidir.

İnsan hüquq və azadlıqlarına hörmət, onun qorunması hər bir polis əməkdaşının vəzifəsi, xidməti və vətəndaşlıq borcudur. Oxucu məktubları və müraciətləri ilə işləyən əməkdaş kimi həmkarlarımızın bu sahədə də çox ciddi mövqelərə gəlib çatdığını görmək, xalqımız tərəfindən bunun təqdir edilməsi xüsusilə xoşdur.

# ONLAR CƏMİYYƏTİN ƏN HƏSSAS ZÜMRƏSİDİR

**3 dekabr Beynəlxalq əlilliyi olan şəxslər Günüdür. Dünya əhalisinin təxminən 10 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir.**

Ölkəmiz BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulub. Dövlət tərəfindən fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə böyük həssaslıqla yanaşılır, sosial rifahlarının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, bu insanların sosial təminatı ildən-ilə daha da yaxşılaşır.

Əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən geniş miqyaslı tədbirlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Onun rəhbərliyi dövründə əlillərin cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib, sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reabilitasiya mərkəzləri, protez-ortopedik müəssisələr yaradılıb.

Son illərdə ölkəmizdə əlilliyi olan şəxslərlə bağlı bərpa-müalicə sisteminin maddi-texniki bazasının gücləndirilməsi və müasir tələblərə uyğun təkmilləşdirilməsi üçün məqsədyönlü işlər aparılır. Bu işlərdə əsas məqsədlərdən biri də əlilliyi olan şəxslərə münasibətdə tibbi yanaşma ilə bərabər, sosial modelin tətbiqinə, həmin şəxslərin sosial reabilitasiya potensialı nəzərə alınmaqla onun reallaşmasına şərait yaradılmasıdır.

**Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin "Biz əlillər üçün, onların yaşaması, əmək fəaliyyətinə cəlb olunması, öz daxili imkanlarından, istedadlarından istifadə etmələri üçün daha da geniş şərait yaradacağıq" fikri dövlətimizin sosial siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyən olunub və Prezident İlham Əliyevin uğurlu sosial siyasəti, digər sahələrdə olduğu kimi, bu tədbirlərin də getdikcə daha geniş vüsətlə davam etdirilməsinə imkan yaradıb.**

Cari ildə dövlət başçımız tərəfindən imzalanan fərman və sərəncamlarla ümumilikdə 1,3 milyon nəfəri əhatə edən həssas əhali qruplarının müavinət və təqaüdləri orta hesabla 100 faiz artırılıb, I dərəcə əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud olan uşaqlara qulluq edənlərə əlavə olaraq Prezident təqaüdü təsis edilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün və Konstitusiya quruluşunun müdafiəsi zamanı fiziki sağlamlıqlarını itirmiş vətəndaşlar və şəhid ailələrinin mənzil, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin, 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərin, Böyük Vətən müharibəsi əlillərinin, hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərin, Çernobıl əlillərinin dövlət hesabına minik avtomobili ilə təminatı işləri davam etdirilir. Artıq bugünədək 6828 mənzil və 6521 minik avtomobil həmin kateqoriyadan olan şəxslərə təqdim edilib.

Əlilliyi olan şəxslərin məşğulluğunun təmin edilməsi üçün də müvafiq tədbirlər həyata keçirilir. 1716 nəfər əlilliyi olan şəxs müxtəlif idarə, müəssisə və təşkilatlarda münasib işlərlə təmin olunub, 205 nəfər üçün peşə hazırlığı kursları təşkil edilib, özünüməşğulluq proqramının icrası zamanı əlilliyi olan şəxslərin iştirakına üstünlük verilib.

***A.Nəcəfova***

# MƏNİM POLİSİM

*Əvvəli 2-ci səhifədə.*

Bununla belə, ürəyimdə bir əminlik də vardı və yenə də var ki, ay ötəcək, il dolanacaq, insanlarımız müasirlik adı altında bizə sırınan saxta həyat tərzlərinin puçluğunu dərk etdikdən, bir-birinə soyuqluqdan biganəlikdən usandıqdan sonra yenidən milli-mənəvi dəyərlərə üz tutacaqlar, onlardan möhkəm-möhkəm yapışacaqlar, görəcəklər ki, ata-babalarımızın yaratdıqları örnəklərin alternativi yoxdur və biz gələcək nəsilləri də bu örnəklər ruhunda böyüdə biləcəyik.

Təki o gördüyüm polislər misalı bütün görəvlilərimiz öz vəzifələrini vicdanla, sevgi ilə yerinə yetirsinlər, dövlətimiz güclü olsun, hər bir vətəndaşımız bu dövlətin güclənməsindən ötrü üzərinə düşən məsuliyyəti hiss edə bilsin.

"Polis" sözü, qədim yunanca, bildiyim qədər elə "dövlət" deməkdir. Azərbaycan polisi öz adına sadiqliyini, bu dövlətin ərazi bütövlüyü, ayaqda durması, vətəndaşlarımızın təhlükəsizliyi naminə fədakarlığını, igidliyini yaxın tariximiz boyu dəfələrlə sübuta yetirib.

Müstəqil dövlətimiz ötən il elan olunmasının 100 illiyini böyük sevgi ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olduğu kimi, Azərbaycan polisi də cümhuriyyətimizin şərəfli yadigarlarındandır.

Polis orqanlarımızın bir əsrdən də çox müddəti əhatə edən fəaliyyətində ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövrü xüsusi yer tutur. Ümummilli liderin hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi istiqamətində ardıcıl işlər görülmüşdü.

Tarixin yeni dönəmləri sübuta yetirdi ki, ulu öndərin daxili işlər orqanları əməkdaşlarında formalaşdırdığı milli dövlətçilik düşüncəsi, Vətənə sevgi hissi, Azərbaycan zabiti şərəfinə sadiqlik ruhu cəmiyyətimiz üçün nə qədər böyük önəm daşıyırmış.

Ötən əsrin 80-ci illərinin sonlarında Ermənistan öz mənfur planlarını işə salıb ölkəmizə qarşı hərbi təcavüzə başlayanda Vətənin sərhədlərinin müdafiəsinə yollanan ilk və yeganə qüvvə məhz polislərimiz oldu. Polis dəstələrimiz, sonralar isə Daxili Qoşun hissələrimiz uzun müddət düşmənə qarşı rəşadətlə vuruşub qəhrəmanlıq göstərdi.

***İndi hansısa ağzının sözünü bilməyənlər Azərbaycan polisinin ünvanına artıq-əskik danışmağa başlayanda yaxın tariximizlə bağlı çox ağrılı, amma bir o qədər də qürur duyası rəqəmlər düşür yadıma. Azərbaycanın ərazi bütövlüyü uğrunda daxili işlər orqanlarının düz 1695 əməkdaşı və hərbi qulluqçusu şəhidlik məqamına yüksəlib, 1710 nəfər yaralanıb. Müstəqillik illərində xidməti vəzifələrini yerinə yetirərkən Azərbaycan daxili işlər orqanlarının 99 əməkdaşı həyatını itirib, 2640 nəfər xəsarət alıb. 67 nəfər Milli Qəhrəman adına, 1143 nəfər orden və medallara layiq görülüb.***

Belə baxanda, elə bilirsən ki, adi statistikadır, oxudun keçdi. Amma bu rəqəmlərin hər birinin kölgəsində bir lay divar övladımızın ağrılı taleyi var. Bu rəqəmlərin hər birinin arxasından bir ailənin, nəslin, el-obanın əzab-əziyyətləri görünür. Amma, eyni zamanda, bu rəqəmlərin hər birinin arxasından həm də onların öz ölümləri, yaralanıb sağlamlıqlarını itirmələri ilə xilas etdikləri minlərlə insanımızın minnətdarlıq dolu çöhrələri boylanır.

Bu gün Azərbaycanda mövcud olan sabitlik və inkişaf mühiti, insanların təhlükəsiz şəraitdə, hüzur içində rahat həyatını yaşaması, öz gündəlik iş-gücü ilə məşğul ola bilməsi o rəqəmlərdən başlanır: Şəhidlik məqamına yüksələn o igidlərimizin nakam ömürlərindən, yaralanıb sağlamlığını itirən o qəhrəmanlarımızın qorxmazlığından, dəyanətindən.

***Onlar bu fədakarlığı bizim üçün ediblər...***

***Biz də cəmiyyət olaraq bunun dəyərini bilməliyik, yaşadığımız əmin-amanlıq mühitinin hansı çətinliklər bahasına başa gəldiyinin fərqində olmalıyıq. Və Azərbaycan polisi bizi cinayətkarlardan, cəmiyyətə təhlükə törədən ünsürlərin təhdidlərindən canı-qanı ilə qoruduğu kimi, biz də öz polisimizi məqsədli şəkildə onun nüfuzuna qara yaxmaq istəyənlərdən, təxribatçılardan qorumağa çalışmalıyıq. Bunu hər birimiz özümüzə vətəndaşlıq borcu bilməliyik. Müstəqillik illərində böyük inkişaf yolu keçmiş və dövlətimiz kimi fəaliyyət tarixinin bütün parametrlər üzrə ən güclü səviyyəsinə gəlib çatmış Azərbaycan polisinin özlüyündə bəlkə də buna ehtiyacı yoxdur heç. Amma axı, bizim cəmiyyət olaraq özümüzün buna çox böyük ehtiyacımız var.***

Cəmiyyət qanunları da təbiət qanunları kimidir. Məsələn, ağına-bozuna baxmadan ağacları baltalasan, axar suyun gözünü tutsan, qısa müddətdən sonra meşəliyin səhraya çevrilməsi labüddür. Bu, Ana Təbiətin insanın yanlışlarına verdiyi reaksiyadır. Bunların əksini edəndə isə ətraf mühitin necə yaxşılaşıb, göz oxşadığına özün şahid olacaqsan.

Cəmiyyət də bizim doğru və yanlışlarımıza qiymətini əməllərimizin, davranışlarımızın nəticələri ilə verir: haradasa oxumuşdum ki, istənilən ölkədə polisə qarşı mənfi münasibətin formalaşması, insanların polisə nifrət ruhunda köklənməsi qısa zamanda orada cinayət hallarının statistikasını bir neçə dəfə artırır.

Bunları əsla özümdən yazmıram. Elmi-tədqiqat mərkəzləri onillər ərzində belə məsələləri öyrəniblər, statistik təhlillər aparıblar, aydın nəticələrə gəliblər. Ona görə də polis haqqında mənfi rəy yürüdən hər kəs əvvəlcə düşünməlidir: bununla gələcəyin neçə cinayətkarına yardım göstəirəm, neçə ağır cinayətə, neçə insanın cinayət qurbanı olmasına vəsilə oluram?!.

Sovet vaxtı belə bir ifadə çox məşhur idi: "Mənim milisim məni qoruyur". Sovet milisi bu ifadəni xüsusilə İkinci Dünya müharibəsindən sonra cəmiyyətdə cinayətkarlıq hallarına qarşı mübarizədə göstərdiyi fədakarlıqlara, ictimai asayişin, insanların təhlükəsizliyinin təmin olunması sahəsindəki fədakarlıqlarına görə haqq etmişdi.

Söhbəti çox uzatmayacağam: o illərdə çəkilmiş "Görüş yerini dəyişmək olmaz", "Arxadan vurulan zərbə" kimi sovet trillerlərini xatırlasaq, daxili işlər orqanları əməkdaşlarının o vaxtlar da necə mətinliklə çalışdıqlarını, bu sistemdə necə çətinliklər bahasına güclü ənənələrin formalaşdığını və bu ənənələrin təcrübəli peşəkarlardan gənc davamçılara ötürüldüyünü görərik.

Əfsuslar olsun ki, ötən əsrin 90-cı illərinin əvvəllərində çox qısa zaman içində bu ənənələr sıradan çıxarıldı. Adını yenicə dəyişmiş polisə qarşı məqsədli təxribatlar işə düşdü. Əsl peşəkarlar kənarlaşdırıldı, yerlərinə - geyindiyi formanın, daşıdığı poqonların məsuliyyətini qətiyyən dərk etməyən, öz vəzifə borcunu yerinə yetirib ictimai asayişi təmin etmək əvəzinə siyasətlə məşğul olan və polisi də siyasi təxribatlara çəkib öz oyunlarına alət etmək istəyən təsadüfi adamlar gətirildi.

Əyani təsəvvür yaratmaqdan ötrü bircə faktı xatırladacağam: AXC-Müsavat iqtidarı dövründə daxili işlər naziri vəzifəsini tutan şəxs həm də siyasi partiya sədri idi. Bu, indi xüsusən gənc oxuculara absurd görünə bilər. Amma bu tarixi, bu reallıqları biz yaşamışıq.

Yeni iqtisadi münasibətlər dövründə yenicə təşəkkül tapmağa başlayan sahibkarlara, imkanlı adamlara qarşı polisin reketlik fəaliyyətinə başlaması barədə xoşagəlməz söz-söhbətlər də o dövr üçün adi hal idi.

Müstəqilliyin ilk illərində yaşananlar, şahidi olduğumuz hərc-mərcliklər haqqında çox danışırıq, xatirələrimizi bölüşürük, nə gizlədim, hərdən ifrata da varırıq, küçəyə belə çıxmağa ehtiyat etdiyimiz o günlərin, narahat gecələrin ağır müharibə şəraitində, qıtlıq, sıxıntı, sosial-iqtisadi böhran, ümidsizlik mühitində yaşandığını bəzən unutduğumuz da olur. Amma bütün hallarda axı bunlar bir reallıq idi. Bəzən dəyişikliklər elə baş verir ki, bir vaxtlar şahid olduqlarının sanki heç yaşanmadığını düşünürsən. Adama belə gəlir ki, elə əvvəldən hər şey indiki kimiymiş...

***Amma 1992-1993-cü illərdə baş verənləri necə unudasan? Cəmiyyət, dövlət, idarəçilik sistemi elə vəziyyətə gətirilmişdi ki, vətəndaş özünü güvəndə hiss edə bilmirdi, polis vətəndaşın təhlükəsizliyini qorumaqda çətinlik çəkirdi, hansısa yollarla bu sistemə soxulmuş ünsürlərsə polis mundiri altında əldə silah özləri vətəndaş üçün təhlükə doğururdular.***

***Bu acınacaqlı duruma yalnız ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra son qoyuldu. 1994-cü ilin 29 aprelində keçirilmiş məşhur müşavirədən sonra Heydər Əliyev Azərbaycan polisi ilə bağlı qəti qərarını verdi.*** Polis sıralarını təsadüfi şəxslərdən təmizlədi, bu sistemdə baş verənləri ürək ağrısı ilə kənardan izləyən, amma vəziyyəti dəyişmək iqtidarında da olmayan əsl peşəkarları iş başına qaytardı, polisin itirilmiş ictimai nüfuzunu bərpa etdi, onu hər cür siyasi oyunların, ictimai çəkişmələrin fövqünə, öz şərəfli statusuna - vətənə, dövlətə xidmət mənziləsinə yüksəltdi.

Azərbaycan polisi milli dövlətçiliyimizin möhkəmləndirilməsində, hüquqi dövlət, demokratik cəmiyyət quruculuğunda, ölkəmizdə sabitliyin, əmin-amanlığın təmin olunmasında müstəsna rol oynayaraq özü də bu prosesin içində böyük inkişaf yolu keçdi.

***Bu inkişaf xətti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə də davam etdirilərək Azərbaycan daxili işlər orqanlarının tarixində yeni parlaq səhifələr açdı. Bu sistemdə müstəqillik dövrünün dəyərləri formalaşdırıldı. Daxili işlər orqanlarının bütün səviyyələrində öz vəzifəsini layiqincə yerinə yetirən gənc nəslin yetişdirilməsi, irs və varislik prinsiplərinin, qazanılmış peşəkar təcrübənin, dövlətçilik təfəkkürünün bir nəsildən digər nəslə uğurla ötürülməsi ənənəsi meydana gəldi.***

Daxili İşlər Nazirliyinin qeyd etdiyim uğurlarının, daha doğrusu, qeyd etmədiyim minlərlə nailiyyətinin əldə edilməsində uzun illər bu qurumun rəhbəri olmuş və şərəfli xidmətinə, dövlətimizə yüksək sədaqətinə, peşəkarlığına görə böyük ictimai rəğbət qazanmış Təhlükəsizlik Şurasının katibi Ramil Usubovun müstəsna töhfələri olub.

Dövlətçiliyimizə qənim kəsilən qüvvələrə qarşı tək canı ilə çəkinmədən meydana girən, illər boyu ölkəmizin, vətəndaşlarımızın təhlükəsiz yaşaması üçün bitməz-tükənməz fədakarlıqlar göstərən, bütün ümidləri layiqincə doğruldan general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə bu sistemin inkişafının davamlılığı təmin edilir, müasirləşdirilir. Vilayət müəllim nə qədər qətidirsə, nə qədər prinsipialdırsa, o qədər də sadə və təvazökardır. Həmişə insanların dayağı və köməyi olub.

Azərbaycan polisinin görkəmi də, davranışları da, ictimai obrazı da, iş prinsipləri də insanlarımızın arzularına daha uyğun olmağa başlayır. İllər əvvəl gözümüz öyrəşmiş yekəqarın, ya da bunun əksinə, çəlimsiz, üstü-başı əzik-üzük, tökülüb gedən, ayaqqabıları çirkli, danışığı da görkəmi kimi kobud polislərdən indi heç yerdə görə bilməzsən.

Tez-tez qəzetlərdə, informasiya portallarında polisə qəbulla bağlı elanlar rastıma çıxır. Yaş, boy, hərbi xidmət, fiziki hazırlıq tələbləri bu elanlarda xüsusi göstərilir. Lazımi fiziki göstəricilərə, polis olmaq arzusuna, ən əsası isə çiyinlərində daşıdığı poqonların məsuliyyətini dərk edəcək qədər mənəvi keyfiyyətlərə malik gənclərə tam şəffaf şəraitdə bu sistemdə xidmətə başlamaq imkanı yaradılır. Ona görə də indi polislərimizin, demək olar ki, hamısı, maşallah, ucaboy, pəhləvan cüssəlli, şüvərək gənclərdir. Xüsusi zövqlə hazırlanmış dəbli polis mundiri, par-par parıldayan çəkmələri onlara çox yaraşır. Azərbaycan polisinin davranış mədəniyyəti də yüksəlir, cilalanır, nizamnamə tələblərinə tam uyğunlaşır. Bir neçə dəfə Polis Akademiyasına yolum düşüb, orada da polis zabitlərinin hazırlanması işi yüksək səviyyədə qurulub. Tədris, təlim ən müasir standartlara uyğun aparılır.

Əlbəttə, daxili işlər orqanları sistemində hər şeyin tam ideal vəziyyətə gəldiyini, heç bir problemin olmadığını iddia etmək fikrindən uzağam. Olsun ki, bu sistemdə öz məsuliyyətini lazımınca anlamayan, vətəndaşla kobud davranan, rüşvət tələb edən, cinayət hallarına qarşı mübarizədə qeyri-peşəkarlıq göstərən insanlar yenə də var. Amma əsas odur ki, bu cür hallara qarşı çox sərt mübarizə aparılır, diqqətə çatdırılan problemlər dinlənilir, nəticə çıxarılır, nöqsanların aradan qaldırılması üçün operativ tədbirlər görülür, vətəndaşların polisə etimadının daha da gücləndirilməsi üçün həllər tapılır.

Bu günlərdə oxuyuram ki, yeni nazir "102" xidməti barədə əmr imzalayıb. Əmrə əsasən, cinayətlər barədə "102" xidmətinə məlumat verən şəxslər daha fakt üzrə ilkin ərizənin alınması üçün polisə dəvət olunmayacaqlar. Bu qəbildən müraciətlərlə əlaqədar sənədləşdirmə işləri onlar üçün rahat şəraitdə, yaşadıqları və ya olduqları ünvana gələn polis əməkdaşları tərəfindən aparılacaq.

Əlbəttə, vətəndaşın polis idarəsinə getməsində bir qəbahət yoxdur. Bütün sivil cəmiyyətlərdə insanlar hansısa problemlə üzləşəndə polisə gedir, çəkinmədən dərdini anladır, kömək istəyir. Bizdə də bu düşüncə tədricən formalaşacaq. Amma etiraf edək ki, hələlik vətəndaşlarımız polis idarələrinə gedib ifadə verməyə sanki bir qədər tərəddüd göstərirlər, gecikirlər, nəyisə düz demirlər, bu isə son nəticədə polisin işini çətinləşdirir.

Bu baxımdan "102" xidməti ilə bağlı yeniliyi çox bəyəndim. Bu, mütərəqqi addımdır. Vətəndaş-polis münasibətlərinin daha sivil xarakter almasına, cinayət və hadisələrlə bağlı məlumatlara baxılması işində operativliyin yüksəldilməsinə, xüsusən vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlib.



Bundan başqa, mühafizə polisinin işində də yeni standartlar, müasir texnologiyalar tətbiq edilir. Bu imkanlardan xəbərdar olan insanların canı evini, bağını, obyektini oğru-əyridən qorumaq dərdindən, qapıları daha qalın dəmirdən etməkdən, pəncərələri az qala dəmiryol relsi qalınlığında barmaqlıqlarla qapamaq dərdindən qurtarıb. Çox cüzi bir aylıq xidmət haqqı qarşılığında sistemə qoşulursan, əgər hansısa nadürüst oğurluq niyyətilə mülkiyyətinə əl uzatmaq fikrinə düşsə, heç içəri keçməyə macal tapmamış mühafizə polisi cəmi iki-üç dəqiqənin içində başının üstünü kəsdirir...

Müsbət dəyişikliklər yol hərəkətinin tənzimlənməsində də özünü göstərir. Mən gənc olanda şəhər yollarında işıqforların sayı o qədər çox deyildi. Yollarda hərəkət axınını əsasən Dövlət Yol Polisi işçiləri tənzimləyərdi. İşıqforlar artandan sonra bu prosesdə polisin iştirakına o qədər də ehtiyac qalmamışdı. Hərəkət ahəngini cəmi üç işığın "dili" ilə tənzimləmək olurdu. Amma son illər maşınların sayının qat-qat artmasını və tıxac yaranması ehtimalını nəzərə alaraq artıq yol polisi də işıqfor olan bir çox yerlərdə paralel tənzimləmə funksiyasını yerinə yetirir. Yayın istisində, qışın şaxtasında, yağışında, küləyində, saatlarla soyuq asfaltın üzərində dayanıb yollardakı tıxacların qarşısını necə peşəkarlıqla aldıqlarını görəndə bu insanlara heyranlıq duymaya bilmirsən.

Yəqin, sürücülük təcrübəsinə malik oxucular da təsdiqləyər: yol hərəkəti qaydaları bütün dünyada elədir ki, nə qədər gözləyib diqqətli sürməyə çalışsan da, bir də görürsən, ildə bir-iki dəfə də olsa hansısa qaydanı yüngülcə pozmusan. Hərdən sürücüm qanıqara əlindəki kağızı göstərir ki, cərimə gəlib. Yaxud Dövlət Yol Polisi əməkdaşlarının hansısa pozuntuya görə maşınımızı saxlayıb cərimə yazdıqları, hətta maşınımızın cərimə meydançasına aparıldığı, düşüb taksi ilə getdiyim vaxtlar da olur. Çoxu buna əsəbiləşir, əhvalı pozulur, "Həsən ağanın qohumu" misalı öz ictimai statusundan, əlaqələrindən faydalanmağa çalışır, mənə isə, nə gizlədim, bu, ləzzət edir. Qanun-qaydaların hər yerdə işlədiyini və hamının qanunlar qarşısında bərabər olduğunu görməkdən gözəl nə ola bilər ki?!.

...8 Mart Beynəlxalq Qadınlar Günü. Yol polisi ötən qadın sürücünü saxlayır. O, sənəd istəmək əvəzinə qadına bir ədəd qızılgül uzadır və "yaxşı yol" deyir.

Bütün ölkələrdə polisin əsas vəzifələrindən biri də dövləti qəsdlərdən qorumaq, qanuni əsaslarla keçirilən kütləvi tədbirlərdə ictimai asayişi, insanların təhlükəsizliyini təmin etmək, qanunsuz kütləvi aksiyaların qarşısını isə mümkün vasitələrlə almaqdır. Bu, dünyanın hər yerində belədir. Azərbaycan da, bütün normal ölkələr kimi, dövlətə müxalif olanlardan xali deyil. Onlar vaxtaşırı olaraq kütləvi tədbirlər keçirir, vətəndaşların sərbəst toplaşmaq hüquqlarından istifadə edirlər. Dövlətimiz əksər hallarda buna icazə verir. Bəzən isə başqa vətəndaşların təhlükəsizliyini, onlar üçün yarana biləcək narahatlığı, təxribat ehtimallarını nəzərə alaraq ya aksiyalar üçün başqa yer təyin edir, ya da qanunun verdiyi səlahiyyətlərdən istifadə edərək dövlət belə tədbirləri məhdudlaşdırır. Müxaliflərsə buna qane olmayıb qanunsuz aksiyalara çıxmaq istəyəndə Azərbaycan polisi anında bunun qarşısını alır.

Bununla bağlı videokadrlarda dəfələrlə fikir vermişəm: polis qanunun tələblərini pozmaq istəyən vətəndaşlarla əvvəlcə xeyli müddət danışıq aparır. Onlara pozuculuqdan əl çəkmək, dağılışıb getmək tövsiyə olunur. İnsafən, bəzən bu tövsiyəni eşidənlər də tapılır. Amma polisin sözünə qulaq asmayıb qanunsuz hərəkətini davam etdirən aksiya iştirakçıları daha çox olur. Belə hallarda polis ən radikal, aqressiv iştirakçıların əl-qolundan yapışaraq ya ərazidən uzaqlaşdırır, ya da əgər qarşısındakı sözdən anlayan biri deyilsə, polis maşınlarına, avtobuslara mindirib qısa müddətə hərəkətini məhdudlaşdırır ki, ictimai asayişi pozmaqda davam etməsin.

Ən maraqlısı budur ki, belə iştirakçıların çoxunun müxalifətə, müxalif düşüncəyə heç bir aidiyyəti yoxdur. Bu aksiyaların nə məqsədlə, nə məramla keçirildiyi də onları qətiyyən maraqlandırmır. Çünki məqsəd başqadır: bu adamlar əvvəlcədən şərtləşib danışdıqları fotomüxbirlərə polisin onların əl-qollarından tutan yerdə şəkillərini çəkdirib digər saxta sənədlərinin, o cümlədən son illər "mühacirət idarəsi" kimi də fəaliyyət göstərən müxalifət partiyalarının funksionerlərindən rüşvət müqabilində aldıqları arayışın arasına qoyurlar ki, daha rahat həyat xülyası ilə getdikləri Avropa ölkələrində özlərini Azərbaycan hakimiyyətinə qarşı barışmaz mübarizlər kimi təqdim edib sığınacaq istəyə bilsinlər.

***Qəribədir, deyilmi? Bunlar həmin şəkilləri o ölkələrə təqdim edirlər ki, oralarda polis qanunsuz aksiyaya çıxmış vətəndaşların əl-qolundan tutmaq nədir, atdöşü edir. Xüsusi təlim görmüş itləri vətəndaşların üstünə qısqırdır. İnsanları gözyaşardıcı qazla, rezin güllələrlə yarımcan hala salır və heç kim polisi bu hərəkətlərinə görə qınayıb ittiham etmək fikrinə düşmür. Çünki nə qədər amansızca davransalar belə, onlar öz vəzifə borclarını yerinə yetirirlər.***

***Bu imkanların hamısından Azərbaycan polisində də var. Polisimiz istəsə, qanunsuz aksiya keçirənlərin üstünə at da sürər, it də qısqırdar, gözyaşardıcı qaz da püskürdər, rezin güllələr də yağdırar. Amma bunların heç birini etmir! Niyəsini çox düşünüb özüm üçün cavabını tapmışam. Ona görə ki, Azərbaycan polisi o aksiyalara çıxan, radikallıq göstərən, polislə əl-qol hərəkətləri ilə danışan insanların da bizlərdən biriləri olmasının, bu xalqın canından-qanından qopmasının, eyni vətənə, bu vətənin eyni dəyərlərinə aid olmasının fərqindədir!***

Bu gün aksiyada ərazidən uzaqlaşdırmaq məcburiyyətində qaldığı yaşlı qadına, kişiyə gənc polis əməkdaşı sabah birgə yol getdikləri avtobusda, metroda böyük kimi ehtiram göstərərək ayağa qalxıb yer verəcək, qanunsuz hərəkətlərinin qarşısını almaqdan ötrü əl-qolundan tutub apardığı gənci sabah tamam başqa bir vəziyyətdə əlisilahlı cinayətkarın qəsdindən qoruyacaq, ondan ötrü sinəsini sipər edəcək.

***Bu, Azərbaycan polisinin humanizmidir, vətənpərvərliyidir, comərdliyidir, öz vəzifə borcunu nizamnamə tələblərini qorumaqla yanaşı, həm də milli dəyərlərimizdən gələn kişiyanalıqla yerinə yetirməsidir!..***

Əgər xüsusi zərurət yoxdursa, vətəndaşın aqressiyası, radikallığı həddən artıq təhlükə törətmirsə və onun qanunsuz hərəkətlərinin qarşısını daha yüngül üsullarla almaq mümkündürsə, Azərbaycan polisi heç zaman ifrat vasitələrə getməz.

***Çavuşundan tutmuş komandirinə, komandirindən nazirinə qədər bu, Azərbaycan daxili işlər orqanları əməkdaşlarının məsləkidir, alicənablığıdır, vətəndaşlara qarşı nəcib davranışıdır...***

*****

Bu yazını təxminən iki aya ərsəyə gətirmişəm.

Hər epizodunu fərqli məkanlarda, müxtəlif təəssüratlar içində qələmə almışam. Ona görə də qeydlərim dəyərli oxucuma bir qədər də adda-budda görünə bilər.

Elə bu sətirləri qələmə aldığım vaxtlarda xarici televiziya kanalı İspaniyanın Kataloniya əyalətində polisin vətəndaşlara necə divan tutmasını göstərən kadrlar nümayiş etdirir. İnsanlara qarşı az qala beysbol topu boyda rezin güllələr atırlar. Brüsseldən çəkilmiş və bizim saxtakarlığa adətkərdə olan sosial şəbəkə müxalifətinin təxribat məqsədilə guya Bakıda çəkilibmiş kimi təqdim etdiyi şəkildə isə polis ağır çəkməsi ilə qadının başını tapdayır.

Bu görüntüləri əsla təqdir etmirəm. Heç oralarda da bu cür aşırı zorakı davranışlara ehtiyac yoxdur, düşünürəm. Qanunsuz aksiyalara çıxmış vətəndaşların qarşısını Azərbaycanda olduğu kimi, Avropa ölkələrində də vətəndaş üçün zərərsiz üsullarla almaq mümkündür.

Amma Avropa polisi qətiyyən özünü əziyyətə salmır. Ona verilmiş səlahiyyətin maksimumundan istifadə edir. Azərbaycan polisi isə buna getməməklə həm də özünü təxribatlardan qoruyur. Yaxşı bilir ki, eyni şeyi Avropa polisi edəndə bu, polisin öz qanuni səlahiyyətlərindən istifadə etməsi kimi normal qəbul olunacaq. Azərbaycan polisi etdikdə isə dövlətimizə təzyiq üçün hər an fürsət gözləyən, nəsə qoparmaq istəyən xarici qara qüvvələr, kəmfürsətlər "polis zorakılığı" hay-küyü ilə aləmə həşir salacaqlar.

Bu da dünyanın ikili standartlarından biridir...

*****

Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirildi. 160-a yaxın dövlətin, beynəlxalq təşkilatın rəhbərləri, dünyanın tanınmış dövlət xadimləri, çoxu da öz xanımları ilə paytaxtımızda qonaq oldular, görməli yerlərimizdə gəzib dolaşdılar. Bakıdan dünyaya önəmli mesajlar verildi.

Bu, son illər Azərbaycanın uğurla evsahibliyi etdiyi möhtəşəm beynəlxalq tədbirlərin daha biridir. Bu cür tədbirlərin təşkilində, ***ölkəmizin, Bakının dünyanın sülh, dialoq, anlaşma paytaxtına çevrilməsində Azərbaycan polisinin də böyük əməyi var. Bütün bunlar həm də onların fədakar xidməti nəticəsində Azərbaycanda yaradılmış sabitlik, əmin-amanlıq mühitinin xoş mənzərəsidir.***

Azərbaycan polisi bizim təhlükəsizliyimizin, rahatlığımızın, rifahımızın keşiyindədir. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Polis xalqımıza, müstəqil Azərbaycan dövlətinə, onun hər bir vətəndaşına xidmət edir".

***Azərbaycan polisi bizim həyatımızı qoruyur. Biz də öz polisimizin şərəfi, ləyaqəti, məsuliyyəti ilə doğrultduğu adını qoruyaq...***

# BİR İNSANI XİLAS ET Kİ, BƏŞƏRİYYƏT YAŞASIN...



*-Ata, Vətən nədir?*

***-Vətən sənin qəlbindir, damarında qanındır.***

*-Onda hər ay mənə xəstəxanada qanı Vətən verir?*

***Talassemiyadan əziyyət çəkən qızcığazın verdiyi sualdan atanın gözləri yaşardı və övladının bunu görməməsi üçün üzünü yana çevirib astadan dilləndi:***

***- Qızım, Vətənin dəyərli övladları öz qanları, canları ilə həm bizi qoruyur, həm də qanlarını qanvermə aksiyalarında donorluq etməklə sənin kimi balaların sağlam və firavan həyat sürməsindən ötrü əsirgəmirlər. İndi sənə köçürüləcək qanı elə Vətənin hədiyyəsi kimi qəbul et...***

Talassemiyadan əziyyət çəkən uşaqlara kömək məqsədi ilə Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayında təşkil edilən qanvermə aksiyası da əsl xeyriyyəçilik missiyası, vətəndaşlıq borcu idi.

"Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramına uyğun olaraq, keçirilən aksiyada alayın şəxsi heyəti yüksək həvəslə və könüllü olaraq iştirak edirdi.

Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donor polis əməkdaşının sağlamlığı öncədən müəyyən olunduqdan sonra, onlardan qan analizi götürülürdü.

Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkənlər üçün könüllü qan verməyin vacib və xeyirxah iş olduğunu bildirdilər. Onlar, qana ehtiyacı olan insanların köməyinə çatmaqla bu nəcib və humanist aksiyada yaxından iştirak etməyin vətəndaşlıq borcu olduğunu da qeyd etdilər.

Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsində istifadə olunacaq.

*Anar Qafarov,*
*polis baş leytenantı*

# GÜVƏNİR, İNANIR VƏ QALİB GƏLİR

**İdmançılarımızın beynəlxalq arenalarda qazandığı uğurlar bu gün hər birimizi sevindirir. Gücünə, inadına inananların qələbə əzmi ilə sınaqlardan üzüağ çıxması onların davamçılarının da sayını günü-gündən artırır. Göstərilən diqqət və qayğı isə göz önündədir. Hər bir gəncin sağlam böyüməsi dövlət siyasətimizin prioritetidir.**

**Gənclərimiz zərərli vərdişlərə deyil, idmana, bədən tərbiyəsinə daha həvəslə meyl edir, sağlam gələcək uğrunda mübarizə aparırlar. Ulu öndərimizin təbirincə desək, biz idmanı ümumxalq hərəkatına çevirə bilmişik və bu siyasət uğurla davam etdirilir.**

Polis idmançılarımızın qazandığı qələbələrə artıq adətkar olmuşuq. Bilirik ki, onlar Vətənə medalsız dönməyəcəklər. Asayişin, əmin-amanlığın keşiyində durmaqla yanaşı, Azərbaycan adını sevə-sevə dünyada öz gücləri, intellektləri ilə tanıdırlar və bu artıq ənənə halını alıb.

"Polis çiynini hər zaman işin ağırına verir. Ölkəmizin taleyüklü dönəmlərində gecə-gündüz bilməyib. Nəticə göz önündədir. Biz onu göz bəbəyimiz kimi qoruyub gələcək nəsillərə ərmağan etməliyik.



Paqondaşlarımızın, o cümlədən Şöbəmizin əməkdaşı, **polis serjantı Roman Əhmədovun** ən çətinin öhdəsindən gələrək idmanda da böyük uğur qazanması hər birimizi sevindirir",- deyən rəis, **polis polkovniki Xəqani Cəfərov** çempionun özü ilə görüşməyimizi məsləhət gördü.

1985-ci ildə Ağdaşda doğulub. Kiçik yaşlarından idmanla məşğul olub. İdmanın pauerliftinq növü ilə 2017-ci ildən məşğul olur. Ötən iki il ərzində respublika və beynəlxalq idman arenalarında 82 kiloqram çəkidə yüksək nəticələr göstərib. Finlandiyada pauerliftinqin VPC növü ilə keçirilən yarışdan da o, qızıl medal qazanaraq ən güclülərdən olduğunu bir daha sübut edib. Deyir ki, həmin yarışa qatılan 6 idmançımızdan 3-ü polis idi.

Roman Əhmədov üçnövçülükdə ilk üçlüyə düşüb. O, 6 rəqibinin dizini yerə gətirərək 275 kiloqram qaldırıb və yarışın qalibi olub.

***Həmkarımız 2009-cu ildən sıramızdadır və polis olduğu üçün qürur duyur. Və elə bu ovqatla da gələn il İngiltərədə keçiriləcək Avropa çempionatına əzmlə hazırlaşır.***

***Uğur olsun!***

*Hafiz Təmirov,*
*polis mayoru*



# Nizami yurdunda

***Sıravi polis əməkdaşları Vüsal Bayramov, Sənan Babazadə, Azər İbrahimov, Rəşid Quliyev, Mirməhəmməd Quliyev, Emil Niftəliyev və Elçin Əliyev xidmətdə nümunəvi və intizamlıdırlar, Gəncə sakinləri arasında hörmət, xoş münasibət qazanıblar. Ümumiyyətlə, respublikamızın bu ikinci böyük şəhərində Post-Patrul Xidmətinin əməkdaşları asayişin və içtimai təhlükəsizliyin təmininə öz töhfələrini verirlər.***

*Foto Ü.Muradovundur*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında keçirilir. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş, Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayan və qeydiyyatda olan şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il noyabr ayının 18-dən dekabr ayının 18-dək **http://www.mia.gov.az/index.php?/az/content/29799/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***- şəxsiyyət vəsiqəsi;***
***- ali təhsil haqqında diplom;***
***- hərbi bilet;***
***- əmək kitabçası (olanlar üçün);***

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

***"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.***

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

**(012) 590-92-37; (012)-590-80-66.(012) 590-93-27;**

**(012) 590-93-45; 012) 590-93-64; (012) 590-95-23.**

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Dövlət və hüquq nəzəriyyəsi.
-Cinayət hüququ.
-Cinayət prosesi.
-İnzibati hüquq.
-Kriminalistikanın əsasları.
-Kriminalogiyanın əsasları.
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.
- «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Qaçış:** 100 (yüz) metrə – 15 saniyə, 1000 (min) metrə – 4 dəqiqə;

**Turnikdə dartınma:**

***- çəkisi 80 kiloqramadək -*** 10 dəfə,
***- çəkisi 80 kiloqramdan yuxarı -*** 6 dəfə;

***Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi*** – 20 dəfə;

***Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi*** –20 dəfə.

# Noyabr ayının 20-dən 26-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 118 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 38 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 161, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 1, borclu şəxs qismində axtarışda olan 100 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 22 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 27 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 63 fakt müəyyən edilmişdir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin kollektivi iş yoldaşları
**RASİM ƏLİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabunçu RMİ-nin rəisi Əşrəf Allahyarov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Hikmət Qasımov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Azər Əfəndiyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Vüqar Əliyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Mehman Əliyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəy RPŞ-nin rəisi Mehman Həşimov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabunçu RMİ-nin rəisi Əşrəf Allahyarov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qubadlı RPŞ-nin rəisi Bəhruz Cabbarov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kərəm Ağalarov, Əli Babayev, Hünər Hüseynov Baş Mühafizə İdarəsinin əməkdaşı Anar Ələkbərova atası
**BAĞIR ƏLƏKBƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göygöl RPŞ-nin rəisi Müqalib Abdıyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00